# İtirmənin hekayəsi: Uçurum və Solğun çiçəklər

**Günel Bəxtiyar qızı İsgəndərova**
*AMEA-nın Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutu*
**E-mail:** gunel.isgan@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. F.N. Abdurəhmanova,
filol.ü.f.d. Q.N. Süleymanova

**Açar sözlər:** romantizm, xəyal qırıqlığı, mücərrəd idealizm, cəmiyyət, insan
**Ключевые слова:** романтизм, разочарование, абстрактный идеализм, общество, человек
**Key words:** romanticism, frustration, abstract idealism, society, human

Duyğu və düşüncə bütünlüyünün vəhdətini təşkil edən romantizm, hislərə və yaradıcılıq gücünə üstünlük verərək insanın mənəvi inkişafına, mənən kamilləşməsinə çalışır. Romantizm cərəyanının mənimsəmiş olduğu duyğu anlayışı çox vaxt kədərli və melankolikdir. Yəni bədbinliyə, faciəvi sonluğa meyllidir. Sənətkarlar daha çox insanın cəmiyyətdə bədbəxt olmasının səbəbini axtarır, insan taleyinə acımaq, sosial ədalətsizlik şəraitində keçirdiyi iztirablar, bir sözlə, obrazların daxili dünyasını təsvir etməyə çalışır. Humanist düşüncəni mənimsəyən romantik sənətkarlar, iki qütbün – mənfi ilə müsbətin, gözəllik ilə çirkinliyin- ziddiyyətlərini ağ və qara boyalarla təsvir edərək aşılamaq istədiyi düşüncələri bir tərəf mövqe tutaraq əsərlərində açıq şəkildə qələmə alır.

Dünya ədəbiyyatında da mövzu zənginliyi ilə seçilən romantizm Azərbaycan ədəbiyyatında əsasən, vətən, millət, azadlıq və ailə-məişət mövzusu ətrafında cərəyan edir. Eyni zamanda tənhalıq, iztırab çəkmək, cəmiyyətdən qaçış, keçmişi anma və ya gələcəyə sığınma, axtarış, səyahətə çıxmaq kimi romantik metodlar da dünya ədəbiyyatı ilə Azərbaycan ədəbiyyatını bir biri ilə birləşdirir. Bütün bu ortaq xüsusiyyətlərin mərkəzi isə sıxıntıdır.

Bu üsyan sıxıntısı deyil, daha çox qaçış, itirmə, narahatlıq və məhv olmağa yol açan bir sıxıntıdır. Məqalənin adından da göründüyü kimi, buradakı sıxıntı itirmənin hekayəsidir. Yəni, əsərdəki qəhrəmanların sahib olduğu sevincin, xoşbəxtliyin, rahatlığın itkisidir sıxıntı. Əgər “Solğun çiçəklər”də Bəhramın sıxıntısı özünü və Saranı məhv edirsə, “Uçurum”da Cəlalın Avropa sevdası və Gövərçin arasındakı uçuruma səbəb olur. Arzuladığı kimi yaşamaq, onu əhatə edən mühitin xaricinə çıxmağı hədəfləyən bu romantik obrazların faciəsi də məhz bu nöqtədə başlayır.

Romantiklər üçün həyat mübarizə aparmaqdan və onu ideallaşdırmaq arzusundan ibarətdir. Lakin heç də bütün əsərlərdə biz bu vəziyyətlə qarşılaşmırıq. Əksər əsərlərdə mübariz ruhlu obrazların sonda istəyinə çatması, xeyirin şər üzərində qələbəsi təsvir olunsa da, bəzən romantik ruhun faciəsi ilə də qarşılaşırıq. Birinci halda romantik ideologiya, ikincidə isə romantik ruhun faciəsi təsvir olunur. G. Lukas, roman tiplərinin təsnifatında obrazların hadisələrə münasibətinə görə “mücərrəd” idealizm” və “xəyal qırıqlığı romantizmi” olmaqla iki başlıq altında təhlil edir. Mücərrəd idealizmdən yola çıxan şəxsin qarşılaşdığı maneələr müvəqqətidir. Bu əngəllərlə mübarizə aparan kəs daim qalib olan tərəfi təmsil edir.

Bu cür əsərlərdə mənimsənən utopik gerçəklik “olmalı olduğu” üçün mütləq həyata keçir. Ya da mənfi ruhlu güclərə qarşı tanrılar tərəfindən verilən fövqəltəbii güclə mübarizə aparır.

Daxili dünyası ilə real dünya arasında uyumsuzluq yaşamayan bu şəxslər üçün dünya kifayət qədər geniş və gözəlliklərlə doludur. İstənilən yerdə xoşbəxt və firavan yaşamaq mümkündür. Yəni ruh ilə öz, fərd ilə cəmiyyət arasında uçurum yoxdur. Bu insanların arzuları ilə real dünya arasında mütənasüblük var.

Digər tərəfdən romantik düşüncəni mənimsəyən saf qəlbli bu insanlar təbiətlə harmoniya içində verilir. Çünki romantizmə görə təbiət insanın daxili dünyasının təcəssümüdür. Bizlər təbiəti iç dünyamızdakı təlatümləri simvollaşdırmaq üçün qaynaq kimi istifadə edirik. Ancaq bəzən ədəbi əsərlərdə bunun tam əksini etmək də ən gözəl simvolik yönəltimlərdən biri ola bilər. Çox vaxt insanın iç dünyası təbiəti əks etdirir. Belə insanları biz "Solğun çiçəklər"də Sara, "Uçurum"da Gövərçinin timsalında görə bilərik. Təsadüfi deyil ki, Saranın ölüm səhnəsi qaranlıq otaqda və başının yanındakı çiçəklərlə harmoniya içində verilir.

Bu qaranlıq otaqdakı çiçəklər hələ də Saranın ümid dolu intizarının rəmzidir. Eləcə də "Uçurum" əsərində hadisələrin gedişatı təbiətlə vəhdət təşkil edir. Bu cəfakeş qadınlar səmimiyyəti, vəfası və sevgisi ilə seçilən obrazlardır. Yaşadıqları bu geniş dünyada sevgi hər şeyin əlacı, bütün xəyanətlərin dərmanıdır. İdeal dünyanın qəhrəmanları sayılan bu qadınlar təəssüf ki, sevgilərinin qarşılığını kifayət qədər almır, yaralı quş kimi tərk edilir, saralmış çiçəklər kimi solmağa məhkum olunur. Nəhayət onlar da "xəyal qırıqlığı romantizmi"nin personajlarına çevrilir.

Xəyal qırıqlığı romantizminin qəhrəmanları mücərrəd idealizm qəhrəmanlarının tam tərsidir. Əgər mücərrəd idealizm də obrazlar sadəcə xarici qüvvələrlə mübarizə aparır və daxili dünyası ilə onu əhatə edən mühit arasında ziddiyyət yaşamırsa romantik ruhun faciəsində bu kimi hallarla qarşılaşmırıq. Belə insanların daxili dünyasında qurduğu xəyallarla real dünya arasında tərs mütənasiblik hökm sürür. Zəngin və canlı həyat yaşamaq, onu əhatə edən mühitin xaricinə çıxmaq istəyir. Ancaq arzuladıqları həyat ilə sərgilədikləri davranışlar arasında daim uçurum olur.

Bir növ axtarış içində olan romantik qəhrəman xəyal dünyası ilə gerçək dünya arasında ziddiyyətlərlə qarşılaşacağını dərk etsə də bu ziddiyyət onu bir növ ətalətə sürükləyir. G. Lukasın da qeyd etdiyi kimi "xəyal qırıqlığı romantizmi qəhrəmanının meyli daha çox hərəkətsizliyə yönümlüdür, ətrafdakı münaqişələrə və ziddiyyətlərə daxil olmaqdansa, onlardan uzaq durub ruhu maraqlandıran hər şeylə yenə ruhun içində məşğul olmağa meyllidir" (1, s. 117). Bu mənada Bəhram da, Cəlal da zəif iradəli olmaqla yanaşı, bir o qədər də törətdiyi xəyanətin qarşısını almaqda hərəkətsizdir.

Qadın ürəyini ildırıma bənzədən Bəhram Pərinin məhəbbətini hiylə saysa da özü öz əliylə yandırdığı məhəbbət şamını söndürür. Mövzu axtarışı ilə Avropaya üz tutan Cəlal "Gövərçinə dediyi sözlərə sadiq qala bilmir, dünya mələklə dolsa, mənim sənsən başqa bir kimsəni gözüm görməz söyləsə belə, bu fikirlər bir yalana, xəyanətə dönür (6, s. 275). Xəyanətini dərk etsə də mübarizə aparmır, özünü bu yalanın içindən çıxartmağa çalışmır. Onu düz yola çəkmək istəyən Yıldırım və Əkrəmin sözlərinə əhəmiyyət vermir. Hətta Anjellə bərabər İstanbula qayıdır.

Cəlalın mənəvi boşluğu, aydın olmayan məqsəd axtarışı həm özünü, həm də ailəsini uçuruma aparır. Bu kimi hərəkətsizliyi və xəyanəti biz Bəhramda da görürük. Maddi zənginlik axtarışında olan Bəhram, Saranın bütün var-dövlətinin əlindən çıxdığını gördükdə bacılığı Pəriyə meyl edir. Əvvəlcə Pəridən intiqam almaq istəsə də ehtiras və mal-mülk hərisliyi onu cəzb edir, asan yolu seçərək Pərinin, yəni zənginliyin könüllü əsiri olur. Saraya, Saranın xəstəlik dərəcəsindəki sevgisinə və sədaqətinə xəyanət etdiyini dərk edən Bəhram da Cəlal kimi düşdüyü tələdən çıxmağa çalışmır. Hətta ölüm döşəyindəki Saranın öz evindən qovulmasına, ac-susuz yaşamasına, çağırışlarına məhəl qoymur.

Bəhramın iç dünyası ilə dəhşətli münaqişəsi yalnız Saranın ölümündən sonra baş verir. Mənliyi möhürlənmiş Bəhram, indi özünü riyakar, xain, vəfasız hesab edərək daxili dünyasında itib-batır. Dəlilik həddinə çataraq Pərini boğaraq öldürür. Bu mənada Bəhram da, Cəlal da böyük xülyalarının bərabərində kiçik iç hesablaşmalarının da təsiri ilə uçuruma atlayırlar. Zəif iradələri və qarşısını ala bilmədikləri taleləri ilə bu iç hesablaşmalarından məğlub olmuş halda çıxırlar. Lakin onlar üçün fələyin oyunu demək demək doğru olmaz, şüursuz bir şəkildə qədərin axışına qərq olmur bu insanlar. Törətdikləri oyunbazlığı özlərinə etiraf edərək sonda günahkar olduqlarını dilə gətirirlər.

Hər iki əsərin təhlili zamanı iki qütb ayrılığını – sevgi ilə xəyanəti, aydınlıq ilə qaranlığı, zənginlik ilə səfilliyi, nifrət ilə sədaqəti – bir yerdə görürük. "Solğun çiçəklər"də bir tərəfdə Bəhram, Gülnisə və Pərinin zənginlik hərisliyi və bu hərisliyin cinayət və xəyanətə yol açması. Digər tərəfdə isə Saranın Bəhrama olan sevgisi. Bir birində güclü olan bu iki element insanların fəlakətinə səbəb olur. "Romantiklərin ideal cəmiyyət dünyasında mənəvi paklığa kölgə salan adamların nümayəndəsi kimi, əsərdə Gülnisə və Pəri surətləri fərdiləşir...beləliklə, həmin cəmiyyətin nümayəndələri olmaq etibarilə Sara – mələk, Gülnisə və Pəri – iblis obrazını təmsil edir" (3, s. 437). Əsas mənfi obraz kimi verilən Gülnisə obrazı, cəsarətini cahilliyindən alan, hiyləgər bir qadındır. Bəhramın zəif iradəsindən məharətlə istifadə edərək hadisələrin cərəyan etməsində açar rolunu oynayır. Zəngin və canlı həyatın cazibəsi Bəhramın qısa müddətlik vicdan əzabını dindirsə də Saranın ölümü ilə şahə qalxır.

Ümumiyyətlə, xəyal qırıqlığı romantizmi qəhrəmanı hərəkət etməyə deyil, düşünməyə meyllidir. Bəhram da Saranın nigaranlığını, ona qarşı olan haqsızlıqları görsə də heç bir reaksiya vermir sadəcə düşünməklə kifayətlənir. Bəhram əsər boyu sadəcə bir dəfə hərəkətə keçir. O da məhv edici bir hərəkətdir. Xəyal dünyası ilə real həyatı arasında uçurum yaradan Pəridən, nəhayət, qisas alan Bəhram, sanki bu yolla xəyanətlərin ayaq alıb yeridiyi bu həyatdan intiqam alır. Əvvəlcə əmisini, daha sonra şöhrətli və zəngin həyatını, ən sonda isə saf eşqini əlindən alınmasına dolayı yolla səbəb olan Pəri əsərin sonunda boğularaq öldürülür.

Faciədə ən romantik obraz çiçəklərdir. "Gül simvolik obrazına romantik təsvir – tərənnüm kontekstindən yanaşarkən onun cizgilərə müncər (aid) edildiyini də bu məntiqdə aydın dərk etmək olar. Gülün rəngləri, forması, məzmun-məna simvolikası obrazın-lirik qəhrəmanın daxili aləmi, həyatı, düşdüyü vəziyyətlə bağlı təhlil edilir" (4, s. 32). Ayaqlar altında qalıb əzilən bu çiçəklər həm çürümüş cəmiyyətin vəfasızlığının, həm də saf qəlbli insanların narin və həssas olduğunun işarəsidir. Əsərə adını verən çiçəklər sədaqətin, sevginin, saflığın simvolu olaraq əsərdə əsas yer tutur. Əsərdəki digər romantik motivlər rüzgar, fələk, fani dünyadır. Sara və Əbul bu romantik motivlərə müraciət edərək hadisələrin mahiyyətini açır. "Uçurum" əsərini "xəyal qırıqlığı romantizmi" perspektivindən təhlil edərkən ilk öncə Cəlilin romantik ruha və münasibətə sahib obraz kimi görünməyinə rəvac verən xüsusiyyətlərə baxmaq lazımdır. Romantizmin tədqiqatçısı Vəli Osmanlı yazır: "İlk tanışlıq səhnəsində iştirakçıları pərişan görürük.

Pərişanlıq doğuran yenə də ayrılıqdır. Əsərin qəhrəmanlarının ayrılığı gözlənilir. Baş qəhrəman sevgilisindən ayrılıb harasa romantik ideallərın dalısınca getməlidir. Romantik ideallar və ayrılıq. Bir tərəfdə xəyala dad verən ideallərın şirinliyi, o biri tərəfdə vaxtsız ayrılığın ağrıları" (3, s. 72). Romantik obrazın əsas motivləri arasında onu həyata bağlayan, ona güc verən bir ideala sahib olması vacibdir. Cəlil üçün də bu ideal rəssam olmaqdır. Cəlilin idealının məqsədi şəkil çəkməkdən ibarət deyil, şöhrətli rəssam olmaqdır. Lakin bu vəziyyət, çəkməyi yox bir növ varlıq mövqeyini, kimlik olaraq rəssam olmağı hədəfləyən Cəlalın idealına əsərin əvvəlindən kövrəklik qatır.

Gənc rəssam namizədi olan Cəlal rəsm əsərləri ilə məşğul olaraq onunla həmhal olmağı seçməkdənsə Avropa səyahəti ilə "şöhrətli rəssam" olmağı arzulayır. Bu nüans onun rəsmlə və çəkmək istədiyi əsərlər arasındakı münasibətinə də kövrəklik gətirir, onu hədəfindən azdırır. Bir tərəfdə Cəlalın Avropa səyahəti və burada Anjellə rastlaşması. Digər tərəfdə isə, İstanbulda Cəlalın yolunu səbirsizliklə gözləyən Gövərçinin sədaqəti. Yazar iki xətt üzrə inkişaf edən pyesin əsas qayəsini iki fərqli mühit arasındakı ziddiyyətləri sərgiləmək və bu ziddiyyətlərin yaratdığı böhranı Cəlalın simasında cəmləşdirərək Avropaya üz tutan ziyalıların mənəviyyat itkisi təsvir edir. Avtobioqrafik əsər təsirini bağışlayan "Uçurum" çox güman ki, H. Cavidin İstanbulda oxuyarkən qarşılaşdığı mənzərənin inikasıdır. Cəlalın dəyişən əhvaliruhiyyəsinə qarşı qoyulan Əkrəm isə H. Cavidin özüdür. Şərqlə Qərbi qarşı-qarşıya qoyan yazar əslində Cəlal vasitəsilə Şərqin Avropaya inteqrasiyasında qarşılaşacağı təhlükələrdən, aldanışlardan xəbərdar edir. Cəlalın Avropa anlayışı ilə modernizm anlayışı heç də eyni mənanı ehtiva etmir. Qərbi sadəcə modern və inkişaf etmiş ölkələr kimi qiymətləndirmək bir tərəfli və yanlış bir yanaşma olar. Cəlalın Avropanı görmək məqsədi rəssam kimi xarici ölkənin bu sahədə əldə etdiyi keçmiş və modern biliklərdən yararlanmaq, zövq almaq istəyi vardır. Bu onu səyahətdən öncəki arzusu və onu bu səyahətə çıxmasına təşviq edən hədəfidir. Ancaq Avropa həyatı Cəlala rəssam olaraq uğur gətirmədiyi kimi, ailə həyatını da məhv edir. Cəlalın Avropaya səyahəti qaranlığın içinə doğru yol açan bir səyahətdir. Qərb sivilizasiyası orta əsrlərdən keçən, İntibah dövrünü yaşayan, Sənaye İnqilabı edən və bununla da özünəməxsus həyat tərzi və maddi–mənəvi dəyərlər yaratmış bir bütövlükdür. Arzu etdiyimiz qərbli həyat tərzi onlar üçün həqiqi və bizim üçün bir təqliddir. H. Cavid də Qərb kimi daim inkişafda olan mədəniyyət qurmağımızı istəyir. Bu yeniliyi edərkən həm Şərq mədəniyyətindən, həm də Qərbdən istifadə edilməlidir. Ancaq Avropaya kor-koranə heyran olmaq Cəlalı xəyanətkar və bədbəxt insana çevirir.

Öz bədbəxtliyinin səbəbini dərk etsə də vəziyyəti dəyişmək istəmir, əksinə yüngül əxlaqlı Anjel ilə ailəsinin yanına qayıdaraq uçuruma bir addım daha yaxınlaşır, öz övladının qatilinə belə çevrilir. H. Cavid yaradıcılığında "uçurum" anlayışı yalnız real anlayışda ekoloji proses deyil, eyni zamanda elmi axtarışların, öyrənmək prosesinin, mədəni inkişafın da intəhasızlığı içərisindən baş qaldıran mənəvi məkandır. Yazar insanlar arasındakı toqquşmaları da, mənəvi aşırımları da uçurumlara bənzədir" (2, s. 175). Sənətkarın yaradıcılığında fərqli mənaları özündə ehtiva edir uçurum anlayışı həm coğrafi termin, həm insanlar arasındakı uçurum, həm mənəviyyat arasında uçurum, həm də arzularla real dünya arasındakı uçurumdur.

Eyni zamanda bu əsərləri birləşdirən ortaq cəhətlərdən biri də üsyandır. Bu üsyan haqsızlıqla qarşılaşan qadınların səssiz üsyanıdır. Hiyləgərlik, zorbalıq, xəyanət qarşında əyilməmək üçün passiv bir dirənişin üsyanıdır. Çünki o dövrdə Azərbaycan qadını üçün "mübarizə aparmaq" sükutu pozmadan səssiz üsyandan ibarət idi. XIX əsrin sonu XX əsrin əvvəllərində Sovet ideologizminin təsiri altında olan Azərbaycan cəmiyyəti hələ süurlu dirənişin olmadığı, həll yolarının qoyulmağıdı bir dövrün astanasında idi. Digər tərəfdən bu dövrdə neft sənayesinin gedərək inkişafı özü ilə bərabər siniflər arası ziddiyyəti də gətirir. Kasıb ilə varlı arasında uçurum böyüməkdə, cəmiyyətdəki narahatlıq gedərək artmaqdadır. Gündəlik təminatın güclə əldə olunduğu bu dövrdə, zəngin olmaq ehtirası insanların mənəviyyatını gəmirir, ailə içi mənfəət qarşıdurmaları xəyanət və cinayətə kimi yol açır. Bu əsərlərin unikallığı bir də ondan ibarətdir ki, "mücərrəd idealizm" ilə "xəyal qırıqlığı romantizmi" bir yerdə, vəhdət şəklində verilib. Geniş dünyada yaşayan Sara və Gövərçin ilə bu dünyada sığmayan Bəhram və Cəlal bu iki qütbü təmsil edən obrazlardır.

Hər nə qədər dövrün tələblərindən irəli gələrək Sara və Gövərçin səssiz mübarizə aparsa

da hərəkətsiz qalmır. Çünki həyat onlar üçün sevgi imtahanlardan keçməkdən başqa heç bir məna ehtiva etmir. Yaşadığı bu həyat sadəcə sevgi ilə dolu olmaqla bitmir, onun içindəki yeganə şəxsi həyatıdır. Dünyanı bu cür xəyanətlərdən arınmış şəkildə təsəvvür etməsi bu obrazları məyusluğa, xəyal qırıqlığına məruz qoyur. Hər iki əsərin sonu faciəvi şəkildə bitsə də, bir az vəhşətverici olsa da, oxucu sonluğun bu şəkildə bitməsini bir mənalı qarşılayır. Çünki xəyanət, mənəvi boşluq, uçuruma düçar olan insan taleyi müsbət sonluqla yekunlaşa bilməz. Əsasən birinci şəxsin diliylə təsvir olunan hadisələrdə "biz" anlayışına demək olar ki rast gəlinmir. Bir bütünlük məfhumu olan "biz" bir mədəniyyət, bir millət, bir cəmiyyət, bir düşüncə, bir sevgi, bir dünya modelidir. İki yaxası bir araya gəlməyən Bəhram və Sara, Cəlal və Göverçin də bu dünyadan məhrum qalırlar.

"Biz"in parçalanmış halı olan bu əsərlərin kökündə insan xarakterinə xas ən ali hislərin psixoloji ziddiyyətləri dayanır. Maddi gücü əllərində tutan, mərhəmət duyğularından məhrum insanların cəmiyyətdə haqsızlıqlar və müxtəlif fəlakətlərə yol açması diqqətə çatdırılan bu əsərlərdə sosio-psixoloji səbəblərlə təzahür edən əhdə vəfasızlıq, xəyanət, sərvət ehtirası tənqid edilir. Fərqli dövrlərdə yazılmış, iki fərqli intellektual füquru itirmənin hekayəsi kimi verilməsi olduqca fərqli və ürək ağrıdandır. Bu əsərlərdə həm H. Cavid, həm də C. Cabbarlı yazma, ifadə etmə sıxıntılarını əsərlərin mövzusu halına gətirmiş, bu sıxıntını yazı ləvazimatı halına gətirərək qələmə almışlar.

**Məqalənin aktuallığı.** İlk başda təsadüfi seçim kimi görünən "Solğun çiçəklər" və "Uçurum" əsəri xəyal qırıqlığı romantizmi ilə əlaqəli şəkildə oxunduğunda təsadüfi olmaqdan çıxar və başqa bir görünüş qazanar. Bu əsərlər arzularının axtarışı ilə yola çıxan iki obrazın "xəyal qırıqlığının" hekayəsindən bəhs edərək mənəviyyat qarşıdurması, iki arada qalmağın ziddiyyətləri dolğun şəkildə təsvir olunmuşdur.

**Məqalənin elmi yeniliyi.** Bu əsərlərin "xəyal qırıqlığı romantizmi" kontekstində təhlil edilməsi ona yeni məna çalarları qazandırmışdır. Romantik obrazların yaşadığı xəyal qırıqlığı hekayəsinin ədəbiyyatımızdakı bu iki nümunəsi ilə ədiblər yazı və həyat arasındakı əlaqələrin tərcüməsi kimi verir. Həyatda itirmənin hekayəsinə çevrilən xəyanət isə ədəbiyyatda mövzu obyektinə çevrilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorantların, magistr və bakalavrların elmi axtarışının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat

1. Georg Lukacs, Koman kuramı, İstanbul, Metis Yayınları, 2019, 153 s.
2. S. Vəliyeva. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı: "Zərdabi LTD" MMC, 2018, 334 s.
3. V. Osmanlı, Azərbaycan romantizmi. I cild. Bakı: Elm, 2010, 464 s.
4. Ə. Əzimli, Romantizmdən Eposa: Tənqidin Kamran Əliyev aydınlığı. Bakı: Elm və təhsil, 2013, 172 s.
5. Hüseyn Cavid, Əsərləri. Beş cilddə. II cild, Bakı: Lider, 2005, 352 s.

**Г.Б. Искандарова**

## История потери: “Uçurum” и “Solğun çiçəklər”


## Резюме

В конце XIX - начале XX века советская идеология в нескольких формах приводила общество в пропасть. Г. Джавид и Дж. Джаббарлы, писавшие об этой ситуации, рассказали историю утраты и внесли в азербайджанскую литературу новую форму произведения. С этой точки зрения такие пьесы, как «Бледные цветы» и «Бездна», дают нам полную информацию о социальной структуре того периода. Если в «Бледных цветах» бедствие Бахрама уничтожает себя и Сару, в «Бездне» Джалал создает пропасть между любовью Европы и Говарчиным. С этого момента начинается трагедия этих романтических образов, которые стремятся жить так, как они хотят, выйти за пределы окружающей их среды.


**G.B. İsgandarova**

## The story of the loss: “Uçurum” and “Solğun çiçəklər”


## Summary

In the late 19th and early 20th centuries, Soviet ideology in several forms brought society to the abyss. H. Javid and J. Jabbarli, who wrote about this situation, told the story of the loss and introduced a new form of the work into Azerbaijani literature. In this sense, the plays “Solğun çiçəklər” and “Uçurum” give us complete information about the social structure of that period. Whereas in “Solğun çiçəklər”, Bahram's calamity destroys himself and Sarah, in “Uçurum”, Jalal creates a chasm between the love of Europe and Govarchin. From this moment, the tragedy of these romantic images begins, which strive to live the way they want, to go beyond the boundaries of their environment.


**Redaksiyaya daxil olub:** 30.04.2021